UOT 94(479.24)

CƏMİLƏ İSAQOVA
Bakı Dövlət Universitetinin doktorantı
https://orcid.org/0009-0005-7254-0676
isaqova.cemile707@gmail.com

ZƏMANƏMİZİN LAYİHƏ MEMARI: İLHAM ƏLİYEVİN REGİONAL VƏ QLOBAL İNTEQRASİYA SİYASƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/109/127-132

Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etməsindən sonra qarşılaşdığı çətinliklər - iqtisadi tənəzzül, regional qarşıdurmalar və daxili sabitlik problemləri - ölkənin gələcək inkişaf strategiyasını düzgün müəyyənləşdirməyi tələb edirdi. Bu mərhələdə siyasi liderliyin rolu xüsusilə önə çıxdı. 2003-cü ildən Prezident seçilən İlham Əliyev ölkənin xarici siyasətində yeni yanaşmalar ortaya qoyaraq, Azərbaycanın beynəlxalq aləmdə daha fəal və təşəbbüskar mövqeyini formalaşdırdı.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin inkişaf strategiyasının əsas istiqamətlərindən biri beynəlxalq layihələrə inteqrasiya və yeni əməkdaşlıq formatlarının qurulması oldu. O, müxtəlif sahələri - enerji, nəqliyyat, mədəniyyət və humanitar diplomatiyanı əhatə edən layihələrin əsas təşəbbüskarlarından biri kimi çıxış etdi. Bu yanaşma nəticəsində Azərbaycan nəinki regional proseslərin iştirakçısı, həm də bir çox qlobal təşəbbüslərin mühüm tərəfdaşı kimi tanındı.

Açar sözlər: İlham Əliyev, Beynəlxalq layihələr, Regional layihələr, multivektor yanaşma.

Giriş. Xüsusilə İlham Əliyevin enerji sahəsində atdığı addımlar ölkənin iqtisadi müstəqilliyinin gücləndirilməsində və siyasi təsir imkanlarının artmasında mühüm rol oynadı. Bakı-Tbilisi-Ceyhan və Cənub Qaz Dəhlizi kimi beynəlxalq əhəmiyyətə malik enerji layihələri Azərbaycanın enerji resurslarını dünya bazarına təhlükəsiz və müstəqil şəkildə çıxarmağa imkan verdi. Bu layihələrin həyata keçirilməsi Azərbaycanın beynəlxalq enerji bazarında etibarlı tərəfdaş kimi mövqeyini gücləndirdi və ölkənin geosiyasi əhəmiyyətini artırdı. Bununla yanaşı, bu layihələr sayəsində Azərbaycan yalnız bir ixracatçı ölkə kimi deyil, həm də Avropa üçün strateji enerji təminatçısı statusu qazandı.

Digər tərəfdən, İlham Əliyevin təşəbbüsü ilə reallaşan nəqliyyat və logistika layihələri, məsələn Bakı-Tbilisi-Qars dəmir yolu və Ələt Beynəlxalq Dəniz Limanı, Azərbaycanın qlobal nəqliyyat şəbəkələrinə inteqrasiyasını təmin etdi. Bu infrastruktur layihələri sayəsində ölkə Şərqlə Qərb arasında mühüm körpü rolunu oynamağa başladı. Bu həm iqtisadi qazanc, həm də regionda söz sahibi olmaq baxımından önəmlidir. Nəzərə almaq lazımdır ki, XXI əsrdə nəqliyyat və enerji yalnız iqtisadi kateqoriyalar deyil, eyni zamanda siyasi və strateji alətlərə çevrilib. İlham Əliyevin də bu sahələrə xüsusi önəm verməsi Azərbaycanı regional əməkdaşlığın aparıcı oyunçusuna çevirib.

Bundan əlavə, Prezident İlham Əliyev beynəlxalq humanitar platformalarda da ölkənin mövqeyini gücləndirməyə çalışıb. Xüsusilə Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycanın sülh, bərabərlik və beynəlxalq əməkdaşlıq prinsiplərini dəstəkləyən aktiv siyasəti bu təşkilatın nüfuzunu artırmaqla yanaşı, Azərbaycanın da beynəlxalq nüfuzuna töhfə verib. Həmçinin Bakı Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumları kimi təşəbbüslər də Azərbaycanın dünyada mədəniyyətlərarası əməkdaşlığa verdiyi önəmi göstərir. Bu sahədə görülən işlər ölkənin "yumşaq güc"(soft poüer) vasitəsilə beynəlxalq münasibətlərə təsir etmək imkanlarını genişləndirmişdir.

Qlobal çağırışların artdığı dövrdə İlham Əliyevin liderliyi ilə həyata keçirilən layihələr, həm də Azərbaycanın təhlükəsizlik strategiyasının mühüm hissəsinə çevrilmişdir. Enerji təhlükəsizliyi, nəqliyyat marşrutlarının şaxələndirilməsi və diplomatik əlaqələrin genişləndirilməsi nəticəsində ölkə bir sıra siyasi təzyiqlərdən özünü qorumağı bacarmışdır. Beynəlxalq təcrübədə bu kimi layihələr həm iqtisadi inkişafın, həm də siyasi sabitliyin əsas dayaqları kimi qəbul olunur.

Nəticə etibarilə, Prezident İlham Əliyevin beynəlxalq layihələrdəki rolu yalnız ölkədaxili inkişafla məhdudlaşmır. Onun bu sahədəki fəaliyyəti Azərbaycanın beynəlxalq mövqeyinin gücləndirilməsinə, iqtisadi dayanıqlığının artırılmasına və strateji təhlükəsizliyinin təmin olunmasına xidmət edir.

Bu layihələr eyni zamanda Azərbaycanın müasir dövrün çağırışlarına uyğun şəkildə cavab verməyə və müstəqilliyini daha da möhkəmləndirməyə imkan yaradır. Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra qarşılaşdığı mürəkkəb geosiyasi və iqtisadi şərait, ölkənin regional və qlobal sistemə inteqrasiyasını zəruri etdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yalnız enerji resursları ilə deyil, eyni zamanda strateji tərəfdaşlıqlar və transmilli layihələrlə də fərqlənməyə başladı. Bu məqalədə onun liderliyi ilə reallaşan layihələr və onların milli maraqlara təsiri təhlil olunur.

Enerji layihələri və Azərbaycanın qlobal enerji təhlükəsizliyində rolu. Prezident İlham Əliyevin enerji siyasətində əsas strateji istiqamətlərdən biri güclü və balanslı tərəfdaşlıqların formalaşdırılması olmuşdur. Azərbaycan enerji sektorunda transmilli şirkətlərlə, o cümlədən BP, Total, Equinor kimi nəhənglərlə uzunmüddətli və etibarlı əməkdaşlıq platformaları qurmuşdur. Bu əməkdaşlıqlar Azərbaycanın enerji resurslarının hasilatı və ixracında dayanıqlılığını təmin etmişdir. Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Tbilisi-Ərzurum (BTE) kimi layihələrin reallaşması da məhz bu strateji tərəfdaşlıq modelinə əsaslanır. Strateji tərəfdaşlıqlar yalnız iqtisadi deyil, eyni zamanda siyasi sabitliyi və qarşılıqlı etimadı da gücləndirmişdir [4].

İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xarici siyasətdə multivektor yanaşmanı əsas prinsip kimi qəbul etmişdir. Bu o deməkdir ki, Azərbaycan yalnız bir güc mərkəzinə deyil, müxtəlif regional və qlobal aktorlarla əməkdaşlıq etməyi hədəfləyir. Enerji sahəsində bu yanaşma xüsusilə özünü göstərmişdir. Avropa İttifaqı ilə enerji əməkdaşlığı genişləndirilmiş, eyni zamanda Rusiya, Türkiyə, Çin və İranla da dialoq və layihələr inkişaf etdirilmişdir. Bu siyasət Azərbaycanın enerji sektorunda manevr imkanlarını genişləndirmiş, onun suveren mövqeyini qorumağa kömək etmişdir. Multivektor yanaşma çərçivəsində Azərbaycanın enerji siyasəti balanslı və müstəqil xarici siyasətin vacib alətinə çevrilmişdir [7].

Azərbaycanın həyata keçirdiyi enerji layihələri qlobal enerji təhlükəsizliyi kontekstində də əhəmiyyətli rol oynayır. Cənub Qaz Dəhlizi bu baxımdan Avropa ölkələrinin qaz təminatında alternativ mənbəyə çıxışını təmin edən strateji marşrut kimi çıxış edir. Bu layihə təkcə regional deyil, qlobal enerji təhlükəsizliyi məsələsində də vacib addım hesab olunur. Avropa İttifaqı rəsmiləri bu dəhlizi enerji təhlükəsizliyinin möhkəmləndirilməsi üçün mühüm layihə kimi qiymətləndirirlər. Bununla yanaşı, Azərbaycan yeni qaz yataqlarının kəşfi və istismarı istiqamətində də işləri davam etdirərək enerji bazarında dayanıqlı tərəfdaş statusunu qoruyur [5].

Prezident İlham Əliyevin siyasi liderliyi sayəsində Azərbaycan enerji sahəsində həyata keçirilən transmilli layihələrin mühüm iştirakçısına çevrilmişdir. BTC (Bakı-Tbilisi-Ceyhan) neft boru kəməri, BTE (Bakı-Tbilisi-Ərzurum) qaz kəməri, TANAP (Trans-Anadolu qaz kəməri) və TAP (Trans-Adriatik qaz kəməri) kimi layihələr Azərbaycanın beynəlxalq enerji bazarında strateji rolunu təsdiqləyən əsas nümunələrdir. Bu layihələrin hər birində İlham Əliyevin şəxsi təşəbbüsü, diplomatik fəaliyyəti və siyasi iradəsi həlledici olmuşdur [6, 15-16].

BTC layihəsi XXI əsrin əvvəllərində Azərbaycanın neft ixracında yeni mərhələ açdı. İlham Əliyev bu layihənin icrasında Prezident kimi deyil, artıq 1994-cü ildən başlayaraq ARDNŞ-in vitse-prezidenti kimi də yaxından iştirak etmişdir. 2006-cı ildə boru kəmərinin istismara verilməsi nəticəsində Azərbaycan öz neftini dünya bazarlarına daha təhlükəsiz və müstəqil marşrutla çıxarmağa başladı. İlham Əliyev bu layihəni təkcə iqtisadi deyil, eyni zamanda siyasi müstəqilliyin təzahürü kimi qiymətləndirmişdir [4].

BTE qaz kəməri Azərbaycanın təbii qaz ehtiyatlarını Avropaya çıxaran ilk layihə kimi əhəmiyyətlidir. 2007-ci ildə istismara verilən bu kəmər, Şahdəniz qaz yatağının istismarının mühüm hissəsini təşkil edirdi. İlham Əliyev bu layihəni enerji təhlükəsizliyi və strateji əməkdaşlıq baxımından quruluşlandıraraq regional inteqrasiyaya töhfə vermişdir. Onun çıxışlarında bu layihənin həm iqtisadi, həm də siyasi əhəmiyyəti xüsusi vurğulanırdı [10].

İlham Əliyevin rəhbərliyi ilə reallaşan ən əhəmiyyətli enerji layihələrindən biri də Cənub Qaz Dəhlizi çərçivəsində TANAP və TAP layihələri olmuşdur. TANAP layihəsi Türkiyə ərazisindən keçərək Avropaya Azərbaycan qazını daşımaqla enerji diplomatiyasında mühüm nailiyyət hesab olunur. 2018-ci ildə TANAP istifadəyə verildi və TAP layihəsi ilə inteqrasiya olunaraq Azərbaycanın qazını Avropaya çatdırmağa başladı. İlham Əliyev bu layihələrin açılışlarında şəxsi iştirak etmiş, həm

Türkiyədə, həm də Avropada beynəlxalq enerji sammitlərində çıxışlar edərək Azərbaycanın etibarlı tərəfdaş olduğunu dəfələrlə vurğulamışdır [11].

İlham Əliyev Davos İqtisadi Forumu, Münhen Təhlükəsizlik Konfransı, BMT və Avropa İttifaqı tədbirlərində çıxışlarında Azərbaycanın enerji siyasətini nümunə göstərmişdir. O, dəfələrlə Azərbaycanın enerji layihələrinin yalnız iqtisadi maraqları deyil, eyni zamanda regional sabitlik və əməkdaşlıq üçün vacib mexanizm olduğunu qeyd etmişdir. Bu çıxışlar həm beynəlxalq medianın, həm də tərəfdaş dövlətlərin diqqətini cəlb etmiş və Azərbaycanın imicini möhkəmləndirmişdir [12].

Nəqliyyat və logistika layihələrində inkişaf və regional əlaqələrin gücləndirilməsi. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan regional nəqliyyat mərkəzinə çevrilməkdədir. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Limanı və Zəngəzur dəhlizi layihələri ölkənin tranzit potensialını artırmışdır. BTQ xətti Asiyanı Avropa ilə birləşdirən vacib infrastruktur layihəsidir. Zəngəzur dəhlizi isə Azərbaycanın strateji üstünlüyünü daha da gücləndirəcək və inkişafa doğru aparacaq. Bu layihə Türk Dövlətləri Təşkilatı çərçivəsində də böyük maraq doğurur və təkcə iqtisadi deyil, həm də mədəni əlaqələrin inkişafına səbəb olur.

Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu layihəsi Azərbaycan, Gürcüstan və Türkiyə arasında strateji nəqliyyat layihəsidir və Avropa ilə Asiyanı birləşdirən önəmli dəhlizlərdən biridir. Prezident İlham Əliyev bu layihənin təşəbbüskarlarından biri olmuş və onun reallaşmasında diplomatik, maliyyə və siyasi dəstəyi təmin etmişdir. 2017-ci ildə istifadəyə verilmiş bu xətt Azərbaycanı Çin və Avropa arasında önəmli logistik qovşağa çevirmişdir. İlham Əliyev layihənin açılışında bildirmişdir ki, BTQ yalnız nəqliyyat layihəsi deyil, həm də sülh və əməkdaşlıq simvoludur [3].

Azərbaycanın yerləşdiyi coğrafi mövqe ölkəni Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri üçün təbii körpüyə çevirir. Prezident İlham Əliyev bu imkanlardan istifadə edərək Azərbaycanın logistik potensialını inkişaf etdirmək üçün ardıcıl siyasət həyata keçirmişdir. Şimal-Cənub dəhlizi Rusiya, İran və Hindistan arasında mal dövriyyəsini sürətləndirərək Azərbaycan vasitəsilə qlobal ticarət axınını təşkil edir. Şərq-Qərb dəhlizi isə Çindən Avropaya qədər uzanan marşrutda Azərbaycanın tranzit imkanlarını genişləndirir. İlham Əliyev bu layihələrin Azərbaycanın geosiyasi əhəmiyyətini artırdığını vurğulamışdır [1].

44 günlük Vətən müharibəsindən sonra formalaşan yeni geosiyasi vəziyyətdə Zəngəzur dəhlizi Azərbaycan üçün strateji əhəmiyyət kəsb edir. İlham Əliyev bu dəhlizin açılmasını Cənubi Qafqazda yeni nəqliyyat xəritəsinin əsas elementi kimi qiymətləndirmişdir. Zəngəzur dəhlizi vasitəsilə Naxçıvanla birbaşa quru əlaqəsinin bərpası planlaşdırılır ki, bu da nəinki Azərbaycanın ərazi bütövlüyü, həmçinin iqtisadi və nəqliyyat baxımından da ciddi üstünlüklər yaradır. Bu dəhliz həm də Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiya proseslərini sürətləndirəcək [8].

Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmləndirilməsi və diplomatik təşəbbüslər. Prezident İlham Əliyev humanitar və mədəni diplomatiyanı da beynəlxalq siyasətin əsas istiqamətinə çevirmişdir. Qoşulmama Hərəkatına sədrlik, Bakı Humanitar Forumu və Mədəniyyətlərarası Dialoq Forumu kimi tədbirlər Azərbaycanın yumşaq güc vasitəsilə regiona təsirini gücləndirmişdir.

2020-ci ildə COVID-19 pandemiyası zamanı Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması beynəlxalq ictimaiyyət tərəfindən müsbət qarşılanmışdır. Bu addım, Azərbaycanın yalnız regional deyil, qlobal problemlərin həllində də məsuliyyətli iştirakçı olduğunu sübut etmişdir. Belə bir çətin şəraitdə İlham Əliyev pandemiya ilə bağlı beynəlxalq həmrəylik çağırışları edərək, inkişaf etmiş ölkələrin zəif iqtisadiyyata malik dövlətlərə yardım etməsinin vacibliyini qeyd etmişdir [9].

Regional Sülh və Əməkdaşlıq Təşəbbüslərinə nəzər saldıqda 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın ərazi bütövlüyünün bərpası bölgədə yeni siyasi və iqtisadi reallıqlar yaratdığının şahidi olarıq. İlham Əliyev postmünaqişə dövründə regional əməkdaşlıq və inteqrasiya ideyasını təşviq edərək, Cənubi Qafqazda dayanıqlı sülh üçün konkret təkliflərlə çıxış etmişdir.

Ən mühüm təşəbbüslərdən biri Ermənistanla münasibətlərin normallaşdırılması üçün irəli sürülən beş prinsip olmuşdur. Bu prinsiplər suverenliyin və sərhədlərin tanınması, daxili işlərə qarışmama, təhdiddən çəkinmə və kommunikasiya xəttlərinin açılmasını əhatə edir. İlham Əliyev bu prinsipləri BMT tribunasından da səsləndirmiş və beynəlxalq ictimaiyyəti də bu prosesə dəstək verməyə çağırmışdır.

Eyni zamanda, Zəngəzur dəhlizinin açılması təşəbbüsü regional əməkdaşlıq üçün yeni imkanlar yaratmışdır. Bu dəhlizin açılması Azərbaycanın yalnız Naxçıvanla deyil, eyni zamanda Türkiyə və daha geniş coğrafiya ilə birbaşa əlaqəsinin bərpası deməkdir. Bu, həm iqtisadi inkişaf, həm də regionda sülh üçün əsaslı addımdır [8].

Azərbaycan həmçinin bir çox Humanitar və Multikultural tədbirlərə də ev sahibliyi etmişdir. İlham Əliyevin rəhbərliyi ilə multikulturalizm və tolerantlıq sahəsində beynəlxalq platformalarda nüfuzlu mövqe qazanmışdır. Bu sahədə bir sıra beynəlxalq tədbirlərin keçirilməsi ölkənin humanitar gücünü göstərən əsas faktorlardan biridir.

Bakı Beynəlxalq Humanitar Forumu, Dünya Dini Liderlərinin Zirvəsi, Bakı Prosesi kimi təşəbbüslər İlham Əliyevin mədəniyyətlərarası dialoqa və dinlərarası anlaşmaya verdiyi önəmi əks etdirir. 2008-ci ildə başlanan Bakı Prosesi BMT tərəfindən də dəstəklənərək mədəniyyətlərarası əməkdaşlıqda model kimi qəbul edilmişdir. Azərbaycanın UNESCO və ICESCO kimi beynəlxalq qurumlarla əməkdaşlığı da İlham Əliyevin humanitar sahədəki siyasətinin mühüm hissəsidir. Bu təşkilatlarla birgə tədbirlər və irs abidələrinin qorunması üzrə proqramlar Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırmışdır [2].

Nəticə. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra qarşılaşdığı iqtisadi, siyasi və sosial çağırışlara baxmayaraq, son illərdə beynəlxalq səviyyədə reallaşdırılan layihələr sayəsində böyük nailiyyətlər əldə etmişdir. Bu uğurların əsasında isə Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü və uzaqgörən siyasət dayanır. Tədqiqat çərçivəsində apardığımız araşdırmalar göstərdi ki, xüsusilə enerji və nəqliyyat sahələrində reallaşan iri miqyaslı beynəlxalq layihələr Azərbaycanın regiondakı rolunu dəyişdirmiş və onu Cənubi Qafqazın aparıcı dövlətinə çevirmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, "Cənub Qaz Dəhlizi", TANAP və TAP layihələri Azərbaycanın enerji sektorunun modernləşdirilməsinə və enerji təhlükəsizliyinin təmin edilməsinə böyük töhfə vermişdir. Bu layihələr təkcə iqtisadi cəhətdən deyil, həm də siyasi baxımdan ölkənin beynəlxalq nüfuzunu artırmış, Azərbaycanın Avropa və Asiya arasında strateji enerji körpüsünə çevrilməsinə səbəb olmuşdur. İlham Əliyevin bu istiqamətdə apardığı siyasət Azərbaycanın milli maraqlarını qorumaqla yanaşı, beynəlxalq tərəfdaşlarla etibarlı əməkdaşlıq modelinin formalaşmasına da şərait yaratmışdır.

Bundan əlavə, nəqliyyat sahəsində həyata keçirilən Bakı-Tbilisi-Qars dəmir yolu və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi layihələr Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində mühüm tranzit ölkə statusunu möhkəmləndirmişdir. Bu isə ölkəyə əlavə iqtisadi gəlirlər gətirməklə yanaşı, onu regionda mühüm logistik mərkəzə çevirmişdir. Bu layihələr Azərbaycanın iqtisadiyyatında diversifikasiyanı təşviq etmiş, qeyri-neft sektorunun inkişafına təkan vermişdir.

Prezident İlham Əliyevin beynəlxalq layihələrdə apardığı liderlik rolu həm də diplomatik sahədə uğurların qazanılmasına səbəb olmuşdur. Azərbaycan bu layihələr vasitəsilə həm region ölkələri ilə, həm də Avropa İttifaqı, ABŞ, Türkiyə, Rusiya və digər beynəlxalq aktorlarla münasibətlərini balanslı şəkildə inkişaf etdirmişdir. Bu isə ölkənin müstəqil xarici siyasət kursunu uğurla davam etdirməsinə zəmin yaratmışdır.

Bütün bu faktlar onu göstərir ki, müstəqillik dövründə beynəlxalq layihələrin həyata keçirilməsi prosesi sadəcə iqtisadi inkişaf vasitəsi deyil, həm də milli təhlükəsizliyin, siyasi sabitliyin və beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün effektiv alət olmuşdur. Prezident İlham Əliyevin bu sahədəki fəaliyyəti Azərbaycanın gələcək inkişafı üçün strateji istiqamətlərin müəyyənləşdirilməsində və milli maraqların təmin olunmasında mühüm rol oynamışdır.

Nəticə olaraq, müstəqillik dövründə beynəlxalq layihələrin gerçəkləşməsində Prezident İlham Əliyevin rolu təkcə ölkə daxilində deyil, beynəlxalq miqyasda da əhəmiyyətli olmuşdur. Onun rəhbərliyi ilə atılan addımlar Azərbaycanın iqtisadi və siyasi müstəqilliyini möhkəmləndirmiş, ölkənin regional və qlobal səviyyədə nüfuzunun artmasına səbəb olmuşdur. Azərbaycan transmilli layihələrdə liderlik rolu oynamış və regional gücdən qlobal tərəfdaşa çevrilmişdir. Onun enerji, nəqliyyat və mədəni inteqrasiya siyasətləri sayəsində Azərbaycan beynəlxalq arenada etibarlı və təsirli aktora çevrilmişdir. Bu isə onu deməyə əsas verir ki, bu istiqamətdə atılan strateji addımlar Azərbaycanın dayanıqlı inkişaf

modelinin əsas sütunlarını təşkil edir və gələcəkdə də bu kursun davam etdirilməsi ölkənin milli maraqlarına xidmət edəcəkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi. (2023). Tranzit potensialının inkişafı. - https://mintrans.gov.az [01.05.2025].
2. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. (2023). Azərbaycanın multikultural siyasəti və beynəlxalq əməkdaşlıq. - https://www.mfa.gov.az [01.05.2025].
3. Bakı-Tbilisi-Qars. (2021). Bakı-Tbilisi-Qars dəmir yolu haqqında rəsmi məlumat. - https://www.baku-tbilisi-kars.com [01.05.2025].
4. BP Azerbaijan. (2021). BTC və BTE layihələri haqqında. - https://www.bp.com [01.05.2025].
5. European Commission. (2023). EU-Azerbaijan energy cooperation. - https://ec.europa.eu [01.05.2025].
6. Əliyev, İ. (2019). Azərbaycan və enerji siyasəti. Bakı: Azərnəşr.
7. Əliyev, T. (2022). Azərbaycanın multivektor enerji siyasəti. Bakı: Qanun nəşriyyatı.
8. Prezident İlham Əliyevin çıxışları. (2021). Rəsmi Prezident portalı. - https://www.president.az [01.05.2025].
9. Qoşulmama Hərəkatı üzrə rəsmi portal. (2022). Azərbaycanın sədrliyi və təşəbbüsləri. - https://www.namazerbaijan.org [01.05.2025].
10. SOCAR. (2020). BTE qaz kəməri: perspektivlər və nəticələr. - https://www.socar.az [01.05.2025].
11. TANAP Official Website. (2023). Layihə barədə ümumi məlumat. - https://www.tanap.com [01.05.2025].
12. World Economic Forum. (2020). President Ilham Aliyev's Davos address. - https://www.weforum.org [01.05.2025].

ДЖАМИЛЯ ИСАКОВА
докторант Бакинского государственного университета

АРХИТЕКТОР ПРОЕКТОВ НАШЕГО ВРЕМЕНИ: ПОЛИТИКА ИЛЬХАМА АЛИЕВА В ОБЛАСТИ РЕГИОНАЛЬНОЙ И ГЛОБАЛЬНОЙ ИНТЕГРАЦИИ

После восстановления государственной независимости Азербайджанской Республики страна столкнулась с рядом трудностей - экономическим спадом, региональными конфликтами и внутренними проблемами стабильности, - что потребовало правильного определения стратегии будущего развития. На этом этапе особенно важную роль сыграло политическое лидерство. С 2003 года, будучи избранным Президентом, Ильхам Алиев предложил новые подходы во внешней политике страны, сформировав более активную и инициативную позицию Азербайджана на международной арене.

Под руководством Президента Ильхама Алиева одним из основных направлений стратегии развития страны стала интеграция в международные проекты и формирование новых форматов сотрудничества. Он выступил как один из главных инициаторов проектов в различных сферах - энергетике, транспорте, культуре и гуманитарной дипломатии. В результате такого подхода Азербайджан стал не только участником региональных процессов, но и важным партнёром многих глобальных инициатив.

Ключевые слова: Ильхам Алиев, международные проекты, региональные проекты, многовекторный подход.

JAMILA ISAGOVA
PhD student at Baku State University

THE ARCHITECT OF OUR TIME: ILHAM ALIYEV'S POLICY OF REGIONAL AND GLOBAL INTEGRATION

After restoring the state independence of the Republic of Azerbaijan, the country faced several challenges - economic decline, regional conflicts, and issues of internal stability - which required a clear and effective development strategy. At this stage, political leadership played a crucial role. Since being elected President in 2003, Ilham Aliyev has introduced new approaches to the country's foreign policy, shaping Azerbaijan's more active and proactive position in the international arena.

Under President Ilham Aliyev's leadership, one of the main directions of the country's development strategy became integration into international projects and the establishment of new formats of cooperation. He has been one of the main initiators of projects in various fields - energy, transport, culture, and humanitarian diplomacy. As a result of this approach, Azerbaijan has become not only a participant in regional processes but also a key partner in many global initiatives.

Keywords: Ilham Aliyev, international projects, regional projects, multivector approach.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 may 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.
Rəyçilər: t.ü.f.d.Ülkər Məmmədzadə, t.e.d. Qabil Əliyev.